## Fakültənin Tələbə Elmi Cəmiyyəti

Tələbə Elmi Cəmiyyəti tələbələrin elmi-tədqiqat və elmi-praktiki işinin təşkili və koordinasiyası üçün yaradılmış və öz fəaliyyətini alim və müəllimlərin iştirakı ilə həyata keçirən tələbə birliyidir.

**TEC öz qarşısında kompleks vəzifələr qoyur:**

- Tədqiqat işinin əsasının formalaşması və tələbələrin elmi idrak metoduna yiyələnməsi;

- Tələbələrin tədris materialını dərin və yaradıcı şəkildə mənimsəmələrinə yardım göstərilməsi;

- Elmin və praktikanın vəhdəti prinsipinə uyğun olaraq tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi, yeni biliklərin yaranmasının əsası kimi fundamental tədqiqatlara marağın inkişaf etdirilməsi;

- Elmi və praktik işə ən çox istedadı və bacarığı olan tələbələrin aşkar edilməsi;

tələbələrin elmi və praktik tədbirlərin (konkurs, olimpiada, seminar, konfrans, mühazirə, treninqlərin və s.) keçirilməsi və onlarda iştirak etmək imkanı haqda məlumatlandırılması;

- tələbələrin, professor-müəllim heyətinin, elmi işçilərin, biznesin nümayəndələrinin, hakimiyyətin və ictimai birliklərin iştirakı ilə seminar, dəyirmi masa, konfrans, forumların və elmi və praktik xarakterli digər tədbirlərin təşkili və keçirilməsi;

Tələbə Elmi Cəmiyyətinin yaradılmasında həm tələbələrin təşəbbüsü, onların fəal vətəndaş mövqeyi və elmə marağı, həm də bu cür tələbə birliyinin fəaliyyəti üçün bütün lazımi şəraiti yaradan universitet rəhbərliyi əhəmiyyətli rol oynamışdır. Məhz bu maraqlar balansı, bir növ simbioz şəklində, onun mütəşəkkil inkişafına kömək edən başlıca amillərdən biridir.

**TEC öz fəaliyyətini aşağıdakı formalarda həyata keçirir:**

- TEC-in iclası və qarşıdakı elmi tədbirlər haqqında xəbər verilməsi;

- Dövlət, ictimai və beynəlxalq təşkilatlarla, elm nümayəndələri ilə əməkdaşlıq;

- Fənn olimpiadaları;

- İqtisadiyyatın ayrı-ayrı bölmələri üzrə intellektual və işgüzar oyunlar;

- Treninqlər və seminarlar;

- Elmi mövzular üzrə diskussiyalar və cəmiyyətin aktual inkişaf məsələlərinin müzakirəsi;

- Elmi konfransların, simpoziumların, dəyirmi masaların, işgüzar oyunların keçirilməsi.

**Fakültənin Tələbə Elmi Cəmiyyətinin sədri Miriyev Emil Elşən oğlu**

Miriyev Emil Elşən oğlu 21 avqust 2004-cü ildə Şirvan şəhərində doğulmuşdur. 2021-ci ildə Bakı şəhəri 291 saylı Ekologiya liseyini bitirmiş, həmin ildə UNEC-in "Maliyyə və mühasibat" fakültəsinin "Maliyyə" ixtisasına qəbul olmuşdur. Hazırda Tələbə Elmi Cəmiyyətinin "Maliyyə və mühasibat" fakültəsinin sədri kimi fəaliyyət göstərir. Universitetdaxili və universitetdənkənar təşkil olunan bir çox layihələrdə, seminarlarda fəal iştirak etmiş, sertifikaat və təşəkkürnamələrlə təltif olunmuşdur.